Baba ƏLİBABAOĞLU
Azərbaycan Dövlət Pedaqoji Universitetinin doktorantı
E-mail: elibabaoglu@mail.ru
https://doi.org/10.59849/2309-7949.2025.1.35

"KİTABİ-DƏDƏ QORQUD"UN BƏZİ MİFİK OBRAZLARININ ÜMUMTÜRK QAYNAQLARI

Açar sözlər: "Kitabi-Dədə Qorqud", epos, obraz, mif, ümumtürk qaynaqlar

Summary
Baba Alibabaoglu
All Turkish sources of some mythical characters of the "Book of Dede Gorgud"

As is known, the mythological outlook played a leading role in the first stage of human history. This was a kind of childhood of humanity, when people imagined various elements of nature as extraordinary beings. Of course, like all peoples, the Turks also lived through this period. Folklore is irreplaceable for the people who created it, as it preserves the mythological outlook of the people. From this point of view, the "Kitabi-Dade Korkut" epic, which was mainly shaped in the Middle Ages but also preserved the ancient Turkish belief system, is an excellent example of folklore. It should also be noted that the myths in "Kitabi-Dede Gorgud" are not only myths belonging to Turkish folklore. Here, ancient Sumerian, Greek, Hebrew myths, etc. traces are visible. Therefore, since Turkish culture and folklore are integrated with world folklore, both global motifs and national motifs live in this epic. From this perspective, analyzing the mythological images in the epic will also be effective in expanding our understanding of Turkish mythological thought.
Key words; The Book of Dede Korkut, epic, character, myth, All-Turkish sources

Резюме
Баба Алибабаоглу
Общетюркские источники некоторых мифических персонажей "Книги Деде Коркуда"
Как известно, мифологическое мировоззрение играло ведущую роль на первом этапе человеческой истории. Это было своего рода детство человечества, когда люди представляли различные элементы природы необыкновенными существами. Конечно, как и все народы, турки тоже пережили этот период. Фольклор незаменим для создавшего его народа, так как сохраняет мифологическое мировоззрение народа. В этом отношении прекрасным образцом фольклора является эпос «Китаби-Даде Горгуд», сформировавшийся преимущественно в средние века и в то же время сохраняющий древнетюркскую систему верований. Следует также отметить, что мифы в «Китаби-Деде Горгуд» – это не только мифы, принадлежащие турецкому фольклору. Здесь представлены древние шумерские, греческие, еврейские мифы и т. д. следы видны. Поэтому, поскольку турецкая культура и фольклор интегрированы с мировым фольклором, в этом эпосе живут как глобальные мотивы, так и национальные мотивы. С этой точки зрения анализ мифологических образов эпоса также будет эффективным для расширения нашего понимания турецкой мифологической мысли.
Ключевые слова: Книга моего деда Коркута, эпический, характер, миф, общетурецкие источники

Tədqiqatın elmi yeniliyi. Folklor nümunələrinin böyük əksəriyyətində tez-tez mifoloji motivlərlə, mifik obrazlarla qarşılaşırıq. Bu bəşəriyyətin ta qədim zamanlardan bəri insanların dünyagörüşünün ədəbiyyatda, o cümlədən folklorda yaşaması ilə əlaqədardır. Bu baxımdan, folklorun ən böyük janrı olan və adətən mifoloji motivləri özündə geniş şəkildə mühafizə edən dastanların mifoloji tərəfinin tədqiqata cəlb edilməsi olduqca əhəmiyyətli bir məsələdir. Məqalədə sistemli bir şəkildə "Kitabi-Dədə Qorqud"un mifik obrazlarının bir çoxunun təhlilinə çalışılmış, onların türk dastançılığındakı, hətta dünya folklorundakı kökləri ilə müqayisələr aparılmışdır.

Giriş. "Kitabi-Dədə Qorqud" dünya ədəbiyyatının diqqətədəyər nadir incilərindən biri olduğu üçün istər Qərbi Avropada, istər Rusiyada, istər türk dünyası ölkələrinin özündə, istərsə də başqa coğrafi məkanlarda elmi ictimaiyyətin diqqətini cəlb etmişdir. Belə ki, haqqında danışdığımız epos zaman-zaman poetik, linqvistik, tarixi, etnoqrafik və s. aspektlərdən tədqiqata və təhlillərə cəlb edilmiş, F.Dits, M.F.Köprülü, Ə.Abid, M.Ergin, V.M.Jirmunski, V.Bartold, H.Araslı, M.Təhmasib, O.Ş.Gökyay və s. kimi alimlərin də mühüm tədqiqat obyektlərindən biri olmuşdur. Epos elmi ictimaiyyətə məlum olduqdan sonra buradakı müxtəlif mifoloji motivlər, mifik obrazlar da daimi olaraq müxtəlif şərqşünasların, türkoloqların, folklorşünasların diqqət və marağına səbəb olmuşdur. "Kitabi-Dədə Qorqud"un mifoloji qatlarına enə bilmək, onun mifoloji tərəfinə dərindən bələd ola bilmək üçün eposdakı mifik obrazlarla yaxından tanış olmaq, onun digər türk dastanlarında hansı səviyyədə görüldüyünü və bənzərlərini araşdırmaq əhəmiyyətli, zəruri bir məsələdir.

Kitabi-Dədə Qorqud" eposunda Xızır, Tanrı, Əzrayıl, pərilər, Təpəgöz, Cəbrayıl kimi bir sıra mifik obrazlarla qarşılaşırıq ki, onlara həm ümumtürk dastan yaradıcılığında, həm də dünya folklorunda, mifologiyasında rast gəlmək mümkündür.

İndi isə bu obrazların hər birinin "Kitabi-Dədə Qorqud" eposundakı yeri və onun başqa türk dastanlarındakı eynisi olanları, bənzərləri, alternativləri haqqında danışaq. Onu da nəzərə almaq lazımdır ki, bu obrazlar və ya onların bənzərləri əsasən yalnız türk dastançılığı üçün deyil, bir sıra başqa xalqların da folkloru, mifologiyası üçün səciyyəvidir.

Əsas hissə. "Kitabi-Dədə Qorqud"un Buğac haqqında olan boyunda Xızır bir qurtarıcı kimi Buğaca dərdinin dərmanının nə olduğunu söyləyir. Anası gəlib onu, yəni Buğacı yaralı halda taparkən Buğac da dərmanının nə olduğunu anasına deyir. Ana da qırx incəbelli qızla oğlunun yarasını sağaldır. Göründüyü kimi, Xızır bu eposda bir qurtarıcı kimi təqdim olunur. Xızırın adı islam ensiklopediyasında da qeyd edildiyi kimi ərəbdilli qaynaqlarda "hadır", "hadr" və ya "hıdır" olaraq keçir ki, bu da mənası "yaşıl" və ya "yaşıllıq olan yer" mənasına gəlir. Quranda Xızırın adı açıq bir şəkildə çəkilməsə də, tədqiqatçılar Kəf surəsinin 60-82-ci ayələrində haqqında bəhs olunan, Musa ilə qissəsi nəql edilən və Allah qatından rəhmət almış, elm sahibi bir kimsə kimi təqdim olunan şəxsin Xızır olması barədə

əsasən həmfikirdirlər. Xızır müsəlman xalqlarının istər yazılı, istərsə də şifahi ədəbiyyatında rast gəlinən bir obrazdır. Bu obrazın bir sıra özünəməxsus xüsusiyyətləri vardır. Belə ki, Xızır daha çox darda qalanlara yardım etməklə bərabər, bəzən yol göstərən bir bələdçi, bəzən bolluq, bərəkət gətirən müqəddəs biri kimi təqdim olunur. "Koroğlu"nun Türküstan variantlarında bu xüsusiyyətlərin bir çoxunu Xızırda görə bilərik. Məsələn, dastanın uyğur variantında Xızır Koroğluya (Goroğluya) yol göstərir, ona nə qədər yaşayacağını, ona nə vaxt istəsə, kömək edəcəyini söyləyir. O, Koroğlu üçün həm bələdçi, həm yardımçı olur. Lakin türk folklorundakı Xızır obrazına sadəcə islamın təsirilə gələn bir obraz kimi baxmaq heç də doğru olmazdı. B.Ögel bu barədə yazır: "Hızır, Türk kavimlerinde en yaygın bir inanış ve anlayıştır. Anadolunun en uzak köylerinde bile Hızır ile ilgili bir çok inanışlar vardır. Ancak bu inanışlar ile İslamiyyetteki Hızır arasındakı benzerlikler, çok azdır. Bunun içindir ki, burada, İslamiyyetten önceki "Gök sakallı, Ak sakallı, Kocalar"a doğru indik. Zaten bu kocaların özellikleri, Hızır'dan pek ayrılmıyordu. Eski Türk kocaları ad değiştirerek, Hızır tanıtması ile ortaya çıkmışlardı. Türk edebiyatı ile şehir kültürlerinde Hızır, islamiyet şalı ve anlayışı ile devam etmiştir".[19, 89]

Əgər B.Ögelin yuxarıda verdiyimiz fikirlərini çox dərindən incələsək, onun Xızır və əski mifik türk ağsaqqalları arasındakı bənzərliklərə dair fikirlərində ziddiyyət görmək mümkündür. Lakin bənzərlik istər az və ya istər çox olsun, hər halda vardır. Deməli, əski türk inanclarında bənzəri olduğu üçün Xızırın türk folkloruna girməsi heç də çətin bir proses olmamışdır. Yuxarıda da qeyd edildiyi kimi, folklorda Xızır həm də bolluq, bərəkət gətirən biri kimi özünə yer tutmuşdu. P.Əfəndiyev yazır: ""Xıdır", "Xıdır Nəbi", yaxud "Xıdır İlyas" haqqında olan nəğmələr yaşıllıq, yağış arzusu ilə təşkil edilən mərasimlərdə oxunmuşdur. Quraqlıq çox qədimdən bəri insanlara əzab vermiş, onların təsərrüfatını, əkinlərini yandırıb məhv etmişdir. Bunun qarşısını almaq məqsədilə yaşıllıq, su məbudlarına sitayiş edilmiş, onların şəninə təşkil olunan mərasimlərdə mahnılar oxunmuşdur". [5, 113,]

Təbiətin oyanışı başlayarkən keçirilən "Xıdır nəbi" mərasimi haqqında danışan B.Abdulla bu mərasimin kiçik çillənin ilk on günü kimi Xıdır nəbinin adı ilə adlandırıldığını qeyd edir.

Qeyd edildiyi kimi, türk folklorunda Xızır həm də bir yolgöstərən, bələdçidir, onun obrazına başqa türk dastanlarında da rast gəlmək olar. Türklərin islam dinini qəbul etməsinə bir sıra amillər ciddi təsir etmişdir ki, bu amillərdən biri də fars amili idi. Bu məsələ haqqında görkəmli alim M.F.Köprülü özünün məşhur "Türk edebiyatında ilk mutasavvuflar" adlı kitabında geniş danışır. Türklərin islamı qəbul etməsi prosesində Qaraxanlı sülaləsinin və onun əsas hökmdarı, islamı qəbul etdikdən sonra adını Əbdülkərim qoyan Satuk Buğra xanın xüsusi rolu olmuşdur. Onun islamı qəbul etməsində fars əsilli Samanilər sülaləsindən olan Əbu Nəsr ibn Mənsur əsas rol oynamışdı. Həyatı çox maraqlı olan Buğra xan haqqında "Təzikreyi Buğra xan" adlı əsər qələmə alınmışdı. Beləliklə, Buğra xan haqqında əfsanələr, rəvayətlər toplandı, tədricən "Satuk Buğra xan" dastanı yaranmış oldu.

Bu dastanla reallıq arasında təbii ki, ciddi fərqlər var. Dastanda Buğraya islamı qəbul etməsini Əbu Nəsr yox, meşədə qarşısına çıxan Xızır məsləhət görür. Göründüyü kimi, Kitabi-Dədə Qorqud" eposunda darda qalanın imdadına yetişmək funksiyasını yerinə yetirən Xızır, "Satuk Buğra xan" dastanında mənəvi bələdçi kimi təqdim olunur.

Məlum olduğu kimi, böyük türk dastanı "Manas"da da Xızırın xeyirxah bir hami obrazı vardır. Belə ki, o doğulduğu vaxtdan etibarən qəhrəman Manasa himayədarlıq edir. Xızır dastanda o qədər xeyirxah biri kimi qəbul olunur ki, buradakı obrazlar bir-birinə xeyir-dua edərkən Xızırın adını da çəkirlər: "Oğlunu Xızır qorusun", "Xızıra yarısın".[9, 218] Bənzər motivləri "Alpamış" dastanında da görürük. Burada da Xızır qəhrəmanın xeyirxahı, yardımçısıdır.

"Kitabi-Dədə Qorqud" eposunda Tanrı iki boyda obraz kimi təqdim olunur: birincisi, Dəli Domrulla bağlı olan boydur ki, burada o, öncə təkəbbürlü Domrulu cəzalandırır, daha sonra isə iman gətirən Domrulu mükafatlandırır. İkincisi, Bəkil oğlu Əmran haqqındakı boyda qara donlu kafirlərin üzərinə yeriyən Əmranın köməyinə Cəbrayılı yollayır. Eposda həm Tanrı, həm də Allah kəlmələrindən, həm də Allahın 99 müqəddəs adından (əsmaül-hüsna) olan Səttar, Cabbar kimi adlardan istifadə edilib. O hər şeyə qadirdir. İstəsə, Qorqudun könlünə ilham, istəsə, Dirsə xana, Baybörəyə övlad, istəsə, Əmrana güc, qüvvət verə bilər. Başqa türk dastanlarında da Tanrının istəyənə yardım etdiyi görülür ki, bunlara "Manas", "Alpamış" kimi dastanlarda qəhrəmanların uşağı olmayan valideynlərinə Tanrı mərhəmət edir.

"Kitabi-Dədə Qorqud"da qarşımıza çıxan başqa bir mifik obraz Əzrayıldır. O, ibrani dinlərdə Cəbrayıl, İsrafil və Mikayıl ilə birlikdə dörd əsas mələkdən biridir. Quranda birbaşa adı keçməyən bu mələkdən ölüm mələyi olaraq bəhs edilir. Müxtəlif xalqların mifologiyasında da ölümə cavabdeh tanrılar, ilahələr mövcuddur. Nəzərə almaq lazımdır ki, Dəli Domrulun hekayəsi bizə qədim yunan əsatirlərindəki hökmdar Admetin hekayəsini xatırladır. Hər iki süjet arasında bənzərliklər çox olmaqla yanaşı, fərqliliklər də vardır. İslamın müqəddəs kitabı Quranda da qeyd edildiyi kimi, Allah yenilməzdir, qüvvət, qüdrət və hikmət sahibidir və təkdir. Ona görə də yunanların tanrılarından fərqli olaraq, onu aldatmaq, onunla hərb etmək mümkünsüzdür. Məhz buna görə də Admetin həyat yoldaşı Alkestanı Herakl xilas edə bilir, ölüm tanrısına qalib gəlir, lakin Dəli Domrul Tanrının qulu Əzrayıla yenilir. Ölüm və ölümsüzlük axtarmaq düşüncəsi başqa bir türk dastanı olan "Ural Batur" dastanında da mövcuddur. Lakin buradakı süjet daha çox "Kalyanamkara və Papamkara" ilə səsləşir. Uyğurların yazılı abidələrində bu əsərin türkcə tərcüməsi vardır. Burada yaxşı və pis düşüncəyə sahib iki şahzadənin mübarizəsindən söhbət gedir ki, bu süjetin də kökləri Buddanın həyatı haqqındakı rəvayətlərə, əfsanələrə gedib çıxır. Deməli, hər iki dastanda ideya bənzərliyi olsa da, mövzuların kökləri fərqli qaynaqlardan gəlir. Bu cür mövzu və ideyaya isə ilk də-

fə "Bilqamıs" dastanında rast gəlinir. Şumerlər və türklər arasındakı bağlılıq da türkologiyanı maraqlandıran ən maraqlı məsələlərdən biridir.

"Kitabi-Dədə Qorqud"da rast gəlinən mifik obrazlardan biri də bir çox dünya xalqlarının mifologiyasında tez-tez görülən obrazlardan olan pəridir. İslam ensiklopediyasında da qeyd edildiyi kimi, "pəri" sözünün kökləri "Avesta"dakı "pairka" sözündən gəlməkdədir. Görünür, bu mifik varlığın kökləri qədim hind vedalarındakı apsaralara gedib çıxır. Bu obraza müxtəlif xalqların mifologiyasında, folklorunda rast gəlmək mümkündür. Pərilər qeyri-adi dərəcədə gözəl və bununla birlikdə fövqəltəbii gücləri olan (tilsim etmək, cild dəyişdirmək və s.) qadın formasında varlıqlar kimi təsvir olunur. Altaylardakı türklərin, moğolların mifologiyasındakı Ağ qızlar buna örnəkdir.

"Kitabi-Dədə Qorqud" dastanında da pəri obrazı vardır ki, bu Basatın Təpəgözü (Dəpəgözü) öldürdüyü boyda qarşımıza çıxır. Belə ki, Təpəgöz Sarı Çobanın bir pərini zorla özünə ram etməsinin nəticəsində dünyaya gəlir. Qeyri-adi qızlardan övlad dünyaya gəlməsi süjeti hələ "Oğuz kağan" dastanında mövcud idi. Lakin "Oğuz kağan"dakından fərqli olaraq, burada qeyri-təbii şəkildə ortaya çıxan qızla izdivacdan doğulan uşaq şər qüvvəni təmsil edir. Pəri obrazının görüldüyü başqa bir türk dastanı isə "Edigey"dir. Bilindiyi kimi, bu dastanın çoxlu sayda variantları vardır. Edigey Toxtamışın və Əmir Teymurun zamanında yaşamış bir türk qəhrəmanı idi. Dastanın noqay variantında Edigeyin pəridən doğulduğu nəql olunur. Deməli, burada "Kitabi-Dədə Qorqud"dakı kimi pəridən doğulma təsvir olunsa da, "Kitabi-Dədə Qorqud"dan fərqli olaraq pəridən doğulan şəxs dastanın əsas qəhrəmanıdır və bu qəhrəman əsasən müsbət xüsusiyyətlər daşıyır. "Koroğlu"nun Türküstan variantlarının süjetlərində də qəhrəmanın pərilərlə evlənməsi motivi özünü göstərir.

Eposun əsas mifik obrazı Təpəgözdür. Bu tipli obrazlara müxtəlif xalqların mifologiyasında rast gəlmək mümkündür. Bunlara ibrani dini rəvayətlərindəki Dəccalı, Homerin "Odisseya"sındakı Polifem tipli təkgözlüləri misal göstərmək olar. "Kitabi-Dədə Qorqud"da təsvir olunan Təpəgöz Oğuzun ən böyük düşmənlərindən biridir. Onun bütün həyatı eposun bir boyunda təsvir olunur. Bu boy eposun ən əski boylarından biri, bəlkə də birincisidir. M.Təhmasib bu barədə danışarkən həmin boyun əvvəlində ilk olaraq Oğuz xandan danışılması, ardınca da birdən-birə başqa hadisələrin təsvirinə keçilməsinə diqqəti cəlb edərək bu boyun köklərinin çox qədimlərə gedib çıxdığını göstərir. Ə.Abidin də qeyd etdiyi kimi, Basatın Təpəgözü öldürməsi süjeti hələ eposun mövcud nüsxələrinin üzünün köçürülməsindən əvvəl qələmə alınmış olan Aybək əd-Dəvadarinin əsərində də təsvir olunur. Həmin süjetdə Basat Banuçiçəklə evlənir, lakin sonra qələmə alınan nüsxələrdə Banuçiçəklə evlənən şəxs Beyrəkdir. Deməli, bu süjet türklər arasında daha əski zamanlardan yaşamaqda imiş. Altaylarda Təpəgöz haqqında ayrıca əfsanə də mövcuddur. Belə ki, bu əfsanədə yolunu azmış iki bahadırın Təpəgözün mağarasına gəlib çıxmasından, birinin ölməsindən, digərinin isə qurtulmasından da-

nışılır ki, onun qurtuluşunun təsviri Basatın hekayəsini xatırladır. Bu mifoloji motivin köklərini araşdırarkən diqqəti cəlb edən başqa bir məqam da "Nart" eposundakı motivdir. Öncə R.Qolsevkerə istinad edən R.Qafarlı yazır: "Quzey Qafqaz xalqlarının "Nart" eposunda Uruzmaq nəhəng kəlləgözlə (uayuqla) rastlaşır və keçi dərisinə bürünməklə gözünü deşdiyi məxluqdan canını qurtarır".[7, 61] Daha sonra müəllif həmin motivi Azərbaycan folkloru ilə əlaqələndirərək davam edir: "Azərbaycan folklorunun epik ənənəsində də eyni halla rastlaşırıq. Nağıllarda kəlləgöz, eposda isə təpəgöz (dəpəgöz) obrazları çox geniş yayılmışdır.[7, 63]

"Manas" dastanında da Madıkan obrazını türk folklorunun təkgöz bədheybətlərindən biri kimi örnək verə bilərik. Təpəgöz oğuzların düşməni olduğu kimi Madıkan da qırğızların düşməni idi. Lakin Madıkan Təpəgözdən fərqli olaraq tək deyildi, o, kalmıklarla birlikdə hərəkət edirdi. Deməli, dünya folklorunda olduğu kimi, türk folklorunda da bu tipli obrazlara çoxlu sayda rast gəlmək mümkündür.

"Kitabi-Dədə Qorqud"da rast gəlinən Cəbrayıl obrazı islami bir obrazdır. Yuxarıda da qeyd edildiyi kimi, dörd əsas mələkdən biri olan Cəbrayıl Allahın əmr ilə Əmranın yardımına gəlir, onun kafirlər üzərində zəfər qazanmasına kömək edir. Hələ qədim yunan mifologiyasında (Troya müharibəsi) müxtəlif tanrılar ayrı-ayrı tərəflərə kömək edirdilər. Təbii ki, islamda tək bir Allah vardır, yüksəldən də, alçaldan da odur. İslam qissələrində Cəbrayıl yalnız vəhy mələyi kimi yox, həm də Allahın darda qalan sevimli qulları üçün göndərdiyi dostdur. O, oda atılan İbrahimə, quyuya atılan Yusifə, daşla yaralanan Məhəmmədə yardıma gedir. Görünür, islamın da öz təsirini göstərmiş olduğu "Kitabi-Dədə Qorqud"da da bu qissələrdən ilham alınmışdır. Cəbrayıl obrazı başqa bir türk dastanında da qarşımıza çıxır. Bu, "Satuk Buğra xan" dastanıdır. Belə ki, Həzrəti Məhəmməd merac zamanı göydə gördüyü bir ruhun kimə aid olduğunu Cəbrayıldan soruşur. Cəbrayıl isə cavabında bu ruhun sahibinin üç yüz ildən sonra türkləri müsəlman edəcəyini deyir. Göründüyü kimi, Xızır və Cəbrayıl obrazları həm "Satuk Buğra" dastanında, həm də "Kitabi-Dədə Qorqud"da görülsələr də, fərqli funksiyalar daşıyırlar.

Yuxarıda sadalanan obrazlarda mifiklik ilk baxışdan görülməkdədir. Çünki bu obrazlardakı fövqəltəbiilik üzdədir, bunlardakı mifikliyi görmək üçün çox da dərin qatlara enmək ehtiyacı yaranmır. Lakin eposun əksər obrazlarında mifiklik bu və ya digər dərəcədə özünü göstərməkdədir. Məsələn, O.Ş.Gökyay eposdakı hər bir obraz haqqında ayrı-ayrılıqda danışaraq onların mifik tərəflərinə diqqəti cəlb edir. Məsələn, müəllifin Aruz qoca obrazı haqqındakı fikirləri maraqlıdır: "Arız'ın tarihi bir kimse olması mümkündür. Hiç değilse, kendisi eski destan geleneğindeki dev kahramanlara özgü dış görünüştedir. Onunkine benzer mübaligalı tasvirler Orta Asya türklerinin kahramanlık destanlarındakı en eski anlatım yoludur. Bunlara Özbeklerin "Alpamış"ında, Kırgızların "Manas" destanında daha çok düşman kahramanlarının, korkunç devlerin tasvirinde rastlanmaktadır. Bunlardan biri elli kişiyi kuşatabilen bir kuşak kuşanmaktadır. Ötekinin giydiği kavuşlar (dini ayakkabılar) doksan büyük öküz derisinden yapılmıştır; üçüncüsünün giydiği

kalpak altmış-çift, arşın yollu pamuk bezindendir; başka kahramanlar da buna benzer biçimde anlatılmaktadır"[16, 142]

Eposun dərin mifoloji qatlarına enmək baxımından S.Rzasoyun məsələyə münasibəti diqqəti cəlb edir. R.Qafarlı bu barədə yazır: "S.Rzasoy türk mifologiyasının rekonstruksiya yollarına həsr etdiyi fundamental əsərləri ilə (xüsusilə "Oğuz mifologiyası") Azərbaycan-türk folklorşünaslığında yeni mərhələnin başlanğıcını qoymuşdur. Onun fəaliyyətinin bu istiqamətinin geniş təhlil və təbliğ olunması ona görə vacibdir ki, son çağlaradək Rusiya, Orta Asiya və Türkiyə alimləri türk mifologiyasının qaynaqlarını göstərərkən üzdə olan əlamətlərlə, daha çox nağıl və epos mətnlərindəki obrazlar və süjetlərlə kifayətlənirdilər. S.Rzasoy isə oğuz eposlarının mətnlərindəki mifik düşüncə kodlarını əsaslandırılmış şəkildə üzə çıxarmağı bacardı".[7, 37] Bu baxımdan, S.Rzasoyun "Kitabi-Dədə Qorqud"un Alp Aruz variantının bərpası ilə bağlı tədqiqatı diqqəti cəlb edir. ""Alp Aruz variantı"nın şərti adlar altında "Alp Aruzun Uruzu ərgənlik//inisiasiya ritualından keçirtməsi və ona ad verməsi", "Alp Aruzun evinin yağmalanması", "Aruzun kor olmuş gözlərinin açılması", "Qıyan Selcikin dirilməsi" kimi boyların strukturu bərpa olundu".[11, 24]

Adı çəkilən tədqiqatçıları fikirlərindən əlavə bir məsələyə də diqqəti cəlb etmək doğru olardı. Gürcü şairi Ş.Rustavelinin əsərinin əsas qəhrəmanı pələng dərisi geyməsi ilə xatırlanır. Müəllif əsərin əvvəlində nəzmə çəkdiyi süjetin mənbəyi haqqında danışarkən onun bir İran dastanı olduğunu və dildən-dilə dolaşdığını qeyd edir. İndi olduğu kimi həmin dövrdə də, yəni XII əsrin ikinci və XIII əsrin birinci yarısında İranda farslarla yanaşı türklər də yaşayırdı. Deməli, İranda və şübhəsiz ki, Qafqazda da heyvan dərisi geyən qəhrəmanlar haqqında əfsanələr dildəndilə gəzirmiş. Yenə də həmin motiv paralellərini yunan mifologiyasında da görmək mümkündür. Belə ki, Herakl da öldürdüyü Nemey şirinin dərisini çiyninə salmışdı.

Dastanda mifik cəhətlərin özünü göstərdiyi obrazlardan biri Dəli Domruldur. Yuxarıda onun yunan qəhrəmanı Admetə bənzərliyi haqqında danışmışdıq. O.Ş.Gökyay Domrul adının əslində Toğrul olduğunu qeyd edir. Topqapı sarayındakı bir oğuzanaməyə də istinad edən B.Ögel də eyni qənaətə gəlir. Azərbaycan alimlərindən M.Seyidov, A.Acalov, B.Abdulla kimi tədqiqatçıların fikirlərini təhlil edən S.Rzasoy maraqlı bir detala toxunur. Belə ki, dastanda göstərilir ki, Dəli Domrul quru çayın körpüsündən keçəndən 33, keçməyəndən 40 axça alır. S.Rzasoy burada bir maraqlı müqayisə aparır: Sarı Donlu Selcan xatunun yolunda da 32 igid kəlləsini fəda etmişdir, 33-cü elçi Qanturalıdır. Müəllifə görə Dəli Domrulun körpüsü xaosla kosmosun arasındadır. Qanturalının hekayəsində də məsələyə eyni prizmadan yanaşılır: Oğuz eli kosmos, kafir eli Trabzon xaosdur. Və müəllif belə bir nəticə çıxarır ki, xaosa adlamağın arxaik-mifoloji qiyməti 33-dür. Eposda bu cür maraqlı mifoloji paradiqmaları bir çox başqa obrazlarda – Qazan xan, Beyrək və s. görmək mümkündür.

"Kitabi-Dədə Qorqud" eposunda bir çox obrazların əlamətləri xatırlanarkən görürürük ki, məhz S.Rzasoy kimi alimlərin baxışı ilə yanaşsaq, bir çox başqa boyların strukturunun bərpası və ya xəyalən qurulan bu süjetlərin haqqında müəyyən təsəvvürün formalaşması mümkündür. Bu məsələ hələ daha öncə T.Hacıyevin də diqqətini cəlb etmişdir. O, ""Dədə Qorqud Kitabı": olan və olmayan boylar" adlı məqaləsində yazır: "Mövcud anket qəliblərinin təhlili göstərir ki, bir sərkərdənin – bir komandirin bir neçə boyu olmuşdur. Məsələn, Qaragünə oğlu Qarabudaq bu anketlə səciyyələndirilir: "Həmidlən Mərdin qələsin dəqüb yıqan, dəmür yaylı Qıpçaq Məlikə qan qusdıran, gəlübən Qazanın qızın ərliklə alan, Oğuzın ağ saqqallu qocaları görəndə ol yigidi təhsinləyən, al məxmuri şalvarlı, atı bəhri qotazlu Qaragünə oğlı Qarabudaq çapar yetdi". Bu anketdə üç boyun süjeti əks olunur – adları belə olmalıdır: 1. "Hamid qələsin dəqüb yıqan Qaragünə oğlı Qarabdudaq boyını bəyan edər, xanım hey": 2. Mərdin qələsin dəqüb yıqan Qaragünə oğlı Qarabdudaq boyını bəyan edər, xanım hey": 3. "Qazan qızın ərliklə alan Qaragünə oğlı Qarabdudaq boyını bəyan edər, xanım hey".[4, 268-269]

Burada bir məsələni də nəzərə almaq lazımdır ki, eposda mifoloji düşüncənin bir çox struktur səviyyələri: – totemizm, kultçuluk və s. bu və ya digər dərəcədə özünü göstərir. Türk totemizmindən danışarkən ilk ağla gələn qurd totemi olsa da, ancaq türk totemizmində maral, it və s. kimi başqa totemlərə də rast gəlmək mümkündür. "Kitabi-Dədə Qorqud"da aslan totemi özünü qabarıq şəkildə göstərir. Bunu Basatın hekayəsində aydın görmək mümkündür. Burada aslanın insanı bəsləmə motivini Aybək əl-Dəvadarinin əsərində gördüyümüz "Alp Qara Arslan" əfsanəsində də görə bilərik.

Eposda kultçuluk da özünü ciddi şəkildə göstərir. Belə ki, buradakı kultların kökləri hələ qədim türk mifik düşüncəsinə qədər gedib çıxır. Məsələn, eposda Uruzun ağaca müraciətində islami cizgilərlə qarışımış olsa da, ağac kultunu görmək mümkündür. Hələ "Oğuz kağan" dastanında ağac doğulma yeri idi. Belə ki, Oğuz ağacdan çıxan qızla evlənir. "Kitabi-Dədə Qorqud"da ağac kultunun yaşadılması alqışlarda da özünü göstərir: kölgəlicə qaba ağacın kəsilməsin! Ağac kultu "Kitabi-Dədə Qorqud"dan sonra da türk folklorunda uzun müddət yaşamışdır. M.F.Köprülü XVI əsrin II yarısı və XVII əsrin I yarısında yaşadığı düşünlülən Koroğlu adlı aşığın şeirlərini təhlil edərkən yazır: "Mesala Dede Korkut hikayelerinde sık sık geçen kaba ağaç tabirine Ozanın (Köroğlu – red) kitabımızdakı şiirlerinde de tesadüf ediyoruz. [17, 58]

Eposda dağ kultu da özünü ciddi şəkildə göstərir. Öncə onu qeyd etmək lazımdır ki, dağ kultu yalnız türk mifologiyası üçün yox, bir çox xalqların mifologiyası üçün də olduqca səciyyəvidir. Bunlara yunanlardakı Olimp dağını, müsəlman Şərqindəki Qaf dağını, yaponlardakı Fju-Yama dağını və s. nümunə göstərə bilərik. Məlum məsələdir ki, türk folklorunda "Ərgənəqon" dastanının, türk mifologiyasında da buradakı dağ kultunun xüsusi bir yeri vardır. Bu dastanda türklər dağda sığınacaq tapır, sonra bu dağı yararaq yenidən keçmiş ehtişamlarını geri qaytarır-

lar. "Kitabi-Dədə Qorqud" eposunda isə məhz Qazlıq dağı nümunəsi ilə dağ kultunun yaşadıldığının şahidi oluruq.

Deməli, "Kitabi-Dədə Qorqud" eposunda mifiklik yalnız ayrı-ayrı fövqəltəbii obrazlar, müxtəlif insan obrazları üçün səciyyəvi deyil. Burada totemizm, kultçuluk kimi mifoloji düşüncə səviyyələri də özünü göstərməkdədir. Buna görə də eposdakı mifik obrazların xarakterini, səciyyəvi xüsusiyyətlərini doğru təhlil edə bilmək üçün onların müxtəlif totemlərlə (məsələn Basatın aslanla), kultlarla (məsələn, Təpəgözün mağara kultu ilə) olan münasibətlərinə düzgün yanaşmaq vacib bir məsələdir.

Nəticə. Beləliklə, yuxarıda deyilənlərdən məlum olur ki, "Kitabi-Dədə Qorqud"da xeyli mifik obrazlar mövcuddur. Bu obrazların kökləri bəzən qədim türk mifologiyasına, bəzən islama, bəzən də müxtəlif dünya xalqlarının folkloruna gedib çıxır. Türklər hələ qədim zamanlardan bəri bir çox dünya xalqları ilə təmasda olmuşdur. Bu təmaslar özünü ticarətdə, siyasi-diplomatik əlaqələrdə, qonşuluq, geosiyasi münasibətlər zəminində, bəzən də köç və müharibələr zamanında göstərmişdir. Bütün bunların nəticəsində türk mədəniyyəti, ədəbiyyatı, həmçinin folkloru da ciddi şəkildə başqa xalqların mədəni-ədəbi irsi ilə inteqrasiya içində olmuşdur. "Kitabi-Dədə Qorqud" da bu prosesin nəticəsi kimi özündə zəngin bir mifoloji sistemi mühafizə edir. Deməli, ona görə də bu möhtəşəm eposda başqa xalqların da mifologiyasında tez-tez görülən obrazlar çoxdur və bu yalnız "Kitabi-Dədə Qorqud" üçün deyil, bir sıra başqa türk dastanları üçün də səciyyəvidir.

Nəhayət, deyilənlərə əsasən "Kitabi-Dədə Qorqud"dakı mifik obrazlar haqqında ümumi olaraq aşağıdakıları söyləmək mümkündür:

–Eposdakı mifik obrazlar təsadüfi olaraq onun süjetinə daxil olmamışdır. Bu obrazlara əsasən bir çox dünya xalqlarının folklorunda, qədim və klassik türk dastançılığında rast gəlmək mümkündür. Deməli, türk xalqlarının həm öz aralarında, həm də başqa xalqlarla mədəni inteqrasiyası onların ədəbiyyatına təsirsiz olmamış, "Kitabi-Dədə Qorqud" da bu mədəni prosesdən kənarda qalmamış və bu mədəni proses dastanın mifik motivlərində, obrazlarında özünü göstərmişdir.

–Eposda Tanrı, onun mələkləri və Xızır qəhrəmanları himayə edir, qoruyur. Təpəgöz kimi şərin təmsilçisi olan mifik obraz isə nə qədər güclü olsa da, sonda məğlub olur. Bu dastan qoşanların hər zaman xeyrin gec-tez qələbə çalacağına, şərin isə nə qədər fövqəltəbii gücə sahib olsa da, yenə də yeniləcəyinə olan inamının ifadəsidir.

–Əvvəlki tədqiqatların bir çoxunda epos mifoloji aspektdən tədqiq edilərkən daha çox üzdə olan məsələlərdən danışılır, dərin qatlara ciddi toxunulmurdu. Lakin son tədqiqatlar göstərir ki, eposdakı müxtəlif sayların sakrallığında, müxtəlif qəhrəmanların sadalanan əlamətlərində və bu kimi başqa bir çox kiçik detallarda belə dərin mifik paradiqmalar aşkarlamaq mümkündür. Bu baxımdan, son illərin bir sıra tədqiqatları bu yolda əhəmiyyətli addımdır və bu istiqamətdəki tədqiqatları dərinləşdirmək əhəmiyyətlidir.

ƏDƏBİYYAT

Azərbaycan dilində

1. Abid Ə (Əhmədov). Azərbaycan türklərinin ədəbiyyatı tarixi. Bakı, Elm və təhsil, 2016.
2. Antik ədəbiyyat antologiyası. Bakı, Şərq-qərb, 2010.
3. Azərbaycan ədəbiyyatı tarixi. I cild. Şifahi xalq ədəbiyyatı. Bakı, Elm 2004.
4. Azərbaycan qorqudşünaslığı. Bakı, Elm və təhsil, 2020.
5. Əfəndiyev P. Azərbaycan şifahi xalq ədəbiyyatı. Bakı, Elm və təhsil, 2012.
6. Kitabi-Dədə Qorqud. Bakı, Öndər, 2004.
7. Qafarlı R. Mifologiya. I cild. Mifogenez. Bakı, Elm və təhsil, 2015.
8. Qədim Şərq ədəbiyyatı müntəxəbatı. Bakı, Şərq-qərb, 2007.
9. Manas dastanı. Bakı, Nurlan, 2009.
10. Rustaveli Ş. Pələng dərisi geymiş pəhləvan. Bakı, Avrasiya-press, 2006.
11. Rzasoy S. "Kitabi-Dədə Qorqud" eposu. II kitab. Dastanın Alp Aruz variantının ilk bərpa təcrübəsi. Bakı: Elm və təhsil, 2024.
12. Rzasoy S. Oğuz mifologiyası. Bakı, Nurlan, 2009.
13. Şəhriyar Q. Edigey haqqında Qızıl Orda Dastanı. Bakı, Elm və təhsil, 2022.
14. Təhmasib M. Seçilmiş əsərləri. I cild. Bakı, Mütərcim, 2010.
15. Türk xalqları folkloru. IV kitab. Altay dastanları və əfsanələri.Bakı, Elm və təhsil, 2016.

Türk dilində

16. Gökyay O.Ş. Dedem Korkutun kitabı. İstanbul, 1973.
17. Köprülü F. Saz şairleri. Ankara, Kızılay, 2004.
18. Köprülü F. Türk edebiyatında ilk mutasavvuflar. Ankara, Türk Tarihi Kurumu Basımevi, 1976.
19. Ögel B. Türk mitolojisi. II cilt. Ankara, Türk Tarihi Kurumu Basımevi, 1995.

İnternet resursları

Başqurd xalq dastanı Ural Batır. https://turuz.com/storage/Folklore/2018/0763 Bashqurd_Xalq_Destani _Ural_Batir-Metin_Ergin-Qaynislam_Ibrahiov-1996-529s.pdf

Ercilasun A.B. Türklerin türeyiş efsaneleri. https://millidusunce.com/misak/turklerin-tureyis-efsaneleri/

İnayet A. "Köroğlu" destanının uygur versiyonu "Emir Göroğli" ve onun epizot ve motif yapısı üzerine. https://erdem.gov.tr/tam-metin-pdf/409/tur

TDV İslam Ansiklopedisi. Kafdağı. https://islamansiklopedisi.org.tr/kafdagi

TDV İslam Ansiklopedisi. Hızır. https://islamansiklopedisi.org.tr/hizir

TDV İslam Ansiklopedisi. Peri. https://islamansiklopedisi.org.tr/peri

Türk destanları. https://ataturk.org.au/wp-content/uploads/docs/Turk-Destanlari.pdf

Uygurlardan kalma bir fantastik eser. Kalyanamkara ve Papamkara. https://geekyapar.com/uygurlardan-kadim-bir-fantastik-eser-kalyanamkara-papamkara/